# "Məktəblilərarası Milli Hakaton"un
# ƏSASNAMƏSİ

## 1. Ümumi müddəalar

1.1. Bu Əsasnamə innovativ texnologiyalar, xüsusilə kodlaşdırma sahəsində bacarıqlarının artırılmasında özünü sınamaq istəyən təhsilalanlar arasında təşkil edilən "Məktəblilərarası Milli Hakaton"un (bundan sonra – Hakaton) keçirilməsi qaydalarını müəyyən edir.

1.2. Hakaton Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin (bundan sonra – Nazirlik) dəstəyi, "Alqoritmika.Azərbaycan" Məhdud Məsuliyyətli Cəmiyyətinin (bundan sonra – "Alqoritmika.Azərbaycan") təşkilatçılığı ilə keçirilir.

1.3. Hakatonun maliyyələşdirilməsi sponsor tərəfindən təmin edilir.

1.4. Hakatonun resurs, texniki və metodiki təminatı "Alqoritmika.Azərbaycan" tərəfindən həyata keçirilir.

1.5. Bu Əsasnamə təsdiq edildiyi andan etibarən qüvvəyə minir.

## 2. Hakatonun məqsəd və vəzifələri

2.1. Hakatonun əsas məqsədi innovativ və rəqəmsal bacarıqlar üzrə təhsilin keyfiyyətinin və əlçatanlılığının artırılması, o cümlədən texniki, texnoloji və innovasiya yönümlü peşələrə təhsilalanların maraq və meyillərinin yüksəldilməsi, bu sahədə həyata keçirilən tədbirlərin əhatə dairəsinin daha da genişləndirməsi üçün əlverişli şərait yaratmaqdır.

2.2. Hakaton aşağıdakı vəzifələri ehtiva edir:

2.2.1. innovativ texnologiyalara, həmçinin informasiya texnologiyaları sahəsi üzrə peşələrə marağı olan məktəblilərin ölkə səviyyəsində şəbəkələşməsi;

2.2.2. ümumi orta və tam orta təhsil səviyyələrində məktəblilərin rəqəmsal bilik və bacarıqlarının artırılması və onlarda alqoritmik düşüncənin formalaşdırılması;

2.2.3. məktəblilərin texniki, texnoloji və innovasiya yönümlü ixtisaslara marağının artırılması;

2.2.4. innovativ ideyaları ilə seçilən məktəblilərin yaradıcı mühitlə təmin olunması;

2.3. cəmiyyətdə informasiya texnologiyalarının perspektivləri və inkişaf istiqamətləri haqqında təsəvvürün formalaşdırılması.

## 3. Hakatondan gözlənilən nəticələr

3.1. Məktəblilərin informatika fənninin və proqramlaşdırmanın öyrənilməsinə motivasiyasının artırılması;

3.2. Məktəblilərin innovativ texnologiyalar, proqramlaşdırma üzrə biliklərinin və tətbiqi bacarıqlarının təkmilləşdirilməsi;

3.3. İnnovativ texnologiyalar sahəsi üzrə istedadlı məktəbli bazasının (qrupunun) yaradılması;

3.4. Məktəblilər arasında komanda işi və əməkdaşlıq bacarıqlarının yüksəldilməsi;

3.5. Məktəblilərdə digər XXI əsr bacarıqlarının inkişafı.

## 4. Hakatonun təşkili qaydaları və məsul tərəflər

4.1. Hakatonun keçirilməsi üzrə fəaliyyətin təşkili, koordinasiya işləri və icrasına nəzarət Nazirliyin dəstəyi ilə "Alqoritmika.Azərbaycan" heyəti tərəfindən təmin olunur.

4.2. Hakatonun təşkili və keçirilməsi üçün Nazirliyin müvafiq əmri ilə təsdiq edilmiş Təşkilat Komitəsi yaradılır. Təşkilat Komitəsi Hakatonun hazırlığı və keçirilməsi ilə bağlı fəaliyyəti bu Əsasnamə ilə təsdiq edilmiş qaydalar çərçivəsində həyata keçirir.

4.3. Təşkilat Komitəsi aşağıdakı vəzifələri yerinə yetirir:

4.3.1. Hakaton çərçivəsində keçiriləcək tədbirlərə dair tələb olunan maliyyələşmə və texniki resursların təmin olunması, eləcə də müvafiq dövlət və özəl qurumlarla əməkdaşlığın qurulması istiqamətində zəruri tədbirlər görür;

4.3.2. Hakatonun seçim meyarlarına əsasən təhsilalanların qeydiyyatı, iştirakı və fəaliyyətlərinin təmin olunması ilə bağlı tədbirlər görür;

4.3.3. Hakatonun keçirilməsi üçün zəruri infrastruktur və rəqəmsal platformaların istifadəsini təmin edir;

4.3.4. Hakatonun təbliğat-təşviqat planını hazırlayır və fəaliyyətlərin geniş işıqlandırılmasını təmin edir;

4.3.5. Hakatonun keçirilməsinə dair aylıq və yekun hesabatı hazırlayaraq Nazirliyin rəhbərliyinə təqdim edir;

4.3.6. Hakatonun final mərhələsində təqdim edilən işlərin qiymətləndirilməsi üçün münsiflər heyəti yaradır.

4.4. Müvafiq mərhələlərin keçirilməsi zamanı metodiki dəstək və məsləhət üçün "Alqoritmika.Azərbaycan" tərəfindən mentorlar təyin edilir.

4.5. Hakaton iştirakçıları üçün xüsusi dəvət olunmuş spikerlər tərəfindən maarifləndirici sessiyalar təşkil edilə bilər.

## 5. Hakatonda iştirak və onun mərhələləri

5.1. Hakatonda Azərbaycan Respublikasının ümumi təhsil müəssisələrinin 5-11-ci siniflərinin təhsilalanları iştirak edə bilərlər.

5.2. Qeydiyyatın başlandığı tarix elan edildikdən sonra müraciətçilər Hakatonun rəsmi veb-səhifəsində (http://codehour.edu.az/) qeydiyyat formasını doldururlar. Qeydiyyatdan keçmək üçün "Maykrasoft Tims" (Microsoft Teams) hesabı və ya aktiv elektron poçt ünvanı tələb olunur. Qeydiyyatdan keçdikdən sonra iştirakçılara fərdi olaraq platformaya daxil olmaq üçün istifadəçi adı və şifrə göndərilir. Müsabiqənin ilk günündən etibarən iştirakçılar platformaya daxil olub (http://codehour.edu.az/ rəsmi veb-səhifəsindən platformaya birbaşa keçid təmin edilir) seçim mərhələsində (onlayn) müvafiq siniflər üzrə tapşırıqları həll edirlər. Seçim mərhələsi (onlayn) qeyd olunan müddət ərzində platforma üzərindən həyata keçirilir.

5.3. Hakaton onlayn və əyani formatda, müvafiq siniflərdə bir neçə mərhələ üzrə həyata keçirilir:

- İlkin mərhələ - 5-11-ci sinif təhsilalanları üçün qeydiyyat və onlayn seçim turu;
- II mərhələ - ilkin mərhələdən seçilən 15 000 nəfər 8-11-ci sinif təhsilalanları üçün əyani formatda olimpiada;
- III mərhələ - uğurlu nəticə göstərən 2250 nəfər 8-11-ci sinif təhsilalanları üçün əyani formatda olimpiada;
- IV mərhələ - 8-11 sinif təhsilalanlarından seçilmiş 480 nəfər üçün müəyyən olunan şəhər və regionlar üzrə əyani formatda komanda şəklində Hakaton;
- V mərhələ - 120 nəfər 8-11-ci sinif təhsilalanları üçün Bakı şəhərində keçiriləcək əyani final mərhələsi.

5.4. İnnovativ texnologiyalara marağı olan məktəblilərin ölkə səviyyəsində şəbəkələşməsi, eyni zamanda onların texniki, texnoloji və innovasiya yönümlü ixtisaslara marağının artırılması məqsədilə Hakaton çərçivəsində 5-11-ci sinif təhsilalanlarına bir neçə dəfə müxtəlif maarifləndirici fəaliyyətlərdə iştirak etmək imkanı verilir. Platformada fəaliyyətlər üzrə müvafiq bölmələri uğurla tamamlayan təhsilalanlara onlayn sertifikat təqdim olunur.

## 6. Qiymətləndirmə

6.1. Hakatonun mərhələləri çərçivəsində qiymətləndirmə təhsilalanların təhsil səviyyələri kateqoriyalarına əsasən düzgün həll edilən tapşırıqların hesablanması və seçilmiş ekspertlər tərəfindən yekun layihənin qiymətləndirilməsi nəticəsinə əsasən aparılır.

6.2. Hakaton çərçivəsində keçirilən fərdi və komanda yarışları üçün müvafiq dərəcəli diplom və sertifikatlar təqdim edilir.

6.3. IV və final mərhələlərində yarışan iştirakçılar ümumi bal nəzərə alınaraq münsiflər heyəti tərəfindən qiymətləndirilir.

6.4. Qaliblər hədiyyələrlə təltif edilir.

## 7. Hakatonun təqvimi

Hakatonun mərhələləri və keçirilmə müddətləri Təşkilat Komitəsi tərəfindən müəyyən edilir.

## 8. Ümumi qaydalar

8.1. Təşkilat Komitəsi təlimatlara, təqvimə və digər razılaşdırılmış məsələlərə, zəruri olduğu halda, bu Əsasnamənin çərçivəsində dəyişiklik etmək hüququna malikdir.

8.2. İştirakçıların təlimat və qaydalara uyğun davranışına, eləcə də hər hansı qayda pozuntusuna yol verilməməsinə görə platforma üzrə mütəxəssislər cavabdehdirlər.

8.3. Hakaton çərçivəsində qaydalara uyğun olmayan, qayda pozuntusu kimi əldə olunmuş cihaz, alət və avadanlıqlar koordinator və ya nəzarətçi tərəfindən iştirakçı ilə birlikdə sənədləşdirilərək, Hakatonun sonunadək müsadirə edilir.

8.4. Qayda pozuntusuna görə cavabdeh iştirakçılar və ya komandalara Təşkilat Komitəsi tərəfindən məhdudlaşdırıcı tədbirlər tətbiq edilir.

8.5. İştirakçılar və komandaların hər hansı narazılıq və etirazı olduğu halda yalnız müsabiqə müddətində yazılı şəkildə s.support_az@alg.team elektron poçt ünvanına müraciət edə bilərlər.

8.6. Tədbirdə iştirak qaydaları üzrə hər hansı dəyişiklik edilərsə, mərhələlərə uyğun şəkildə iştirakçılara müvafiq məlumat verilir.

## 9. Etik qaydalar

9.1. Hakaton keçirildiyi ərazidə və ya prosesində (Hakatonun keçirilməsi zamanı və ya qiymətləndirmə prosesində) ictimai əxlaqa zidd hal, hərəkət, çıxış və s. edən iştirakçı və ya komandalar Hakatondan, fəaliyyətlərdən kənarlaşdırılır.

9.2. Hakaton keçirildiyi ərazidə digər komandaların fəaliyyətinə və motivasiyasına təsir edəcək vəziyyətlər, hərəkətlər, sözlər və s. nümayiş olunmamalıdır.

9.3. Hakaton cinsindən, irqindən, dilindən, dinindən, siyası əqidəsindən, etnik mənsubiyyətindən, sosial vəziyyətindən, mənşəyindən, sağlamlıq imkanlarından asılı olmayaraq hər bir iştirakçıya bərabər imkanlar yaradır.

9.4. Hakatonun keçirildiyi ərazidə və ya digər tədbirlərin keçirilməsi prosesində Hakatonun məqsəd və vəzifələrinə birbaşa xidmət etməyən hər hansı xeyriyyəçilik, dini, siyasi və s. təbliğatı əks etdirən fəaliyyət yolverilməzdir.

## 10. Məsuliyyət bəyannaməsi

10.1. Təşkilat Komitəsi Hakaton zamanı hər hansı iştirakçı və ya qonaq tərəfindən verilmiş xəbər, elan, həmçinin komanda, iştirakçı davranışı və ya diskvalifikasiya nəticəsində

yaranan, eləcə də müsabiqə iştirakçılarının bir-birinə və ya komandaların üçüncü şəxslərə və s. vurduğu psixoloji, sosial, fiziki ziyan və zərərə, fors-major halların yaratdığı vəziyyətə görə məsuliyyət daşımır.